

**İlhamə Dağlı**

## Bir köhnə daxma var ləpədöyəndə

*Bir köhnə daxma var ləpədöyəndə,*
*kədər heykəlidi, nisgil yuvası,*
*sükut məbədidi, qəm mağarası.*
*Bir köhnə daxma var ləpədöyəndə,*
*Qapısı var , pəncərəsi yox,*
*qıfılı var, açarı yox.*
*Bir köhnə daxma var ləpədöyəndə,*
*sobası var, ocağı yox,*
*Bacası var, tüstüsü yox.*
*Bir köhnə daxma var ləpədöyəndə,*
*soyuğu var, istisi yox,*
*gedəni var, gələni yox.*
*Bir köhnə daxma var ləpədöyəndə,*
*qapısı var, döyəni yox.*
*Gözləyir daxma hər gün,*
*bəlkə bir gələn olar,*
*qapını döyən olar.*
*Daxma yenə qızınar,*
*açılar qırışığı...*
*Bəlkə onda bacadan tüstü çıxar,*
*Həyat gələr daxmaya...*
*Bir gün, bir gün, bir gün...*

Türküstan.- 2022.- 8-14 fevral.- S.14.